# HƏYATI VƏ FƏALİYYƏTİ HAQQINDA

Aida İmanquliyeva 1939-cu il oktyabrın 10-da Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. Burada 132 saylı orta məktəbi qızıl medalla bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb şöbəsində təhsil almışdır (1957-1962). Moskvada SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda ərəb filologiyası üzrə aspiranturanı bitirib (1966), Azərbaycan Elmlər Akademiyasının Yaxın və Orta Şərq Xalqları İnstitutunda kiçik elmi işçi, sonra baş elmi işçi (1966-1976), ərəb filologiyası şöbəsinin müdiri (1976-1988), elmi işlər üzrə direktor müavini (1988-1991), həmin institutda direktor vəzifəsində çalışmışdır (1991-ci ildən). Sağlığında böyük hörmət-izzət sahibi olmuş, haqq dünyasına qovuşduqdan sonra çoxlarının xatirində yüksək mənəviyyatlı kamil insan, dəyərli alim, unudulmaz müəllim, qayğıkeş ana, ləyaqətli qadın kimi qalmış şəxsiyyətlərdən biri də filologiya elmləri doktoru, professor Aida Nəsir qızı İmanquliyevadır. Bu nəcib insan - şərqşünaslıq elminin görkəmli siması ömrü boyu insanlığın zinəti sayılan saf və ülvi dəyərləri parlaq xarakterində cəmləş¬dirmişdir.Uzun illər şərqşünaslıq sahəsində sanballı araşdırmalar aparan, yüksək səviyyəsi, özünəməxsus tədqiqatçılıq məharəti, bir də qələminin qüdrəti ilə elmin ən uca mərtəbələrini fəth edən Aida İmanquliyeva görkəmli alim, müəllim, tərcüməçi, ictimai xadim kimi şərqşünaslıq tarixinə öz möhürünü vurmuşdur. Bütün bunlarla yanaşı, elm cəfakeşinin nurlu siması həm də gözəl həyat yoldaşı, mehriban ana, zərif qadın obrazı kimi göz önündə daim canlanır. Sağlığında sahib olduğu yüksək vəzifələri, elmi titulları, ictimai həyatdakı fəallığı onu həmişə ucaltmış, ümdə insani keyfiyyətləri ilə vəhdət təşkil etmiş, böyük alimi çoxlarının sevimlisinə çevirmişdir. Gözəllik, dərin zəka, əməksevərlik, mehribanlıq, qayğıkeşlik, həssaslıq, səmimiyyət, xeyirxahlıq, yüksək əxlaq - bütün bunlar Aida xanıma xas keyfiyyətlərin toplumunu təşkil etmişdir.

Professor Aida İmanquliyeva çoxsaylı elmi əsərlərinə əbədi ömür bəxş etmiş, bütün varlığı milli kökə, xalqa bağlı şəxsiyyət olmuşdur. Onun əsərlərində xalqın maariflənməsi, milli yaddaşın qorunması, tərəqqiyə doğru irəliləməsi kimi nəcib niyyətlər daim özünü qabarıq göstərmişdir. Elmi tədqiqatlarını əsl alim təəssübkeşliyi ilə aparan, ərəb filologiyası sahəsində özünəməxsus məktəb yaradan Aida İmanquliyeva ərəb ədəbiyyatının bir sıra korifeylərinin yaradıcılığını tamamilə yeni rakursdan araşdıraraq onları Azərbaycan ədəbi ictimaiyyətinə tanıtmışdır. Bununla da Aida xanım ərəb və Azərbaycan ədəbiyyatları arasında sağlam körpü yaratmağa, ədəbi xəzinəmizi daha da zənginləşdirməyə çalışmışdır.Görkəmli alim Şərq filologiyasının müxtəlif aspektləri üzrə apardığı tədqiqatlarla, yaratdığı fundamental əsərlərlə müasir elm tariximizə yeniliklər gətirmiş, ərəb ədəbiyyatının tədqiqində tamamilə yeni səhifə açmışdır. Aida xanım təkcə

Azərbaycan və keçmiş sovet şərqşünaslığının deyil, bütövlükdə dünya şərqşünaslığının inkişafına misilsiz töhfələr vermişdir. Geniş coğrafi arealda - Rusiyada, Ukraynada, Almaniyada, İngiltərədə, Fransada, Özbəkistanda, Gürcüstanda, eləcə də bir sıra ərəb ölkələrində yaxşı tanınan, əsərlərinə tez-tez istinad edilən görkəmli alim müasir ərəb ədəbiyyatının sanballı tədqiqatçılarından biri kimi şərqşünaslıq tarixində əbədi iz qoymuşdur.Təbii ki, Aida xanım kimi nüfuzlu alimlərin formalaşmasında, elmdə yüksək peşəkarlıq zirvəsinə ucalmasında istedad, bilik və yaradıcı proseslə yanaşı, yetişdiyi mühit, ailə tərbiyəsi də öz sözünü demişdir. Görkəmli yazıçı İlyas Əfəndiyev haqlı olaraq yazırdı ki, "hər bir insanın tale yolu, yaradıcılıq qabiliyyəti onu əhatə edən mühitə, məkana və zamana bağlıdır".Görkəmli ərəbşünas-alim Aida İmanquliyeva 1939-cu ilin bir payız günündə - oktyabrın 10-da Bakı şəhərində ziyalı ocağında dünyaya göz açmışdır. Atası - milli jurnalistikamızın patriarxlarından biri Nəsir İmanquliyev uzun illər dövrünün nüfuzlu mətbu orqanlarında rəhbər vəzifələrdə çalışmış, jurnalistikanın nəzəri problemlərinin tədqiqi prosesinə sanballı töhfələr vermişdir. O, Azərbaycan mətbuatının klassik simalarının yolu ilə getmiş, onların yaradıcılığından, mütərəqqi ənənələrindən bəhrələnmiş, özünəməxsus zəngin irs yaratmışdır.Tələbəlik illərində fitri istedadı, dərin zəkası, geniş dünyagörüşü, iti məntiqi təfəkkürü, zəhmətsevərliyi və çalışqanlığı ilə seçilmiş Aida xanım müasir Azərbaycan ərəbşünaslığının banisi, professor Ələsgər Məmmədovun sayəsində ərəb dilini mükəmməl öyrənmişdi.1962-ci ildə Azərbaycan Dövlət Universitetini (indi BDU) fərqlənmə diplomu ilə bitirən Aida xanım filoloq-ərəbşünas ixtisasına yiyələnmişdir. Elə həmin il universitetin Yaxın Şərq xalqları ədəbiyyatı tarixi kafedrasının aspiranturasına daxil olmuş, az sonra Moskvaya ezam olunaraq təhsilini SSRİ Elmlər Akademiyasının Asiya Xalqları İnstitutunun aspiranturasında davam etdirmişdir. Aida xanım aspiranturada tədqiqat obyekti kimi ərəb məhcər (mühacirət) ədəbiyyatını seçmişdir. 1966-cı ildə dissertasiya işini uğurla müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

Elmi titulla Bakıya qayıdan alim Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda fəaliyyətə başlamış, enişli-yoxuşlu elm yolunda pillə-pillə irəliləmişdir. Əvvəlcə kiçik elmi işçi, sonra baş elmi işçi vəzifələrində çalışmış, 1976-cı ildə isə institutda ərəb filologiyası şöbəsinə müdir təyin olun-muşdur. 1988-1991-ci illərdə həmin institutda elmi işlər üzrə direktor müavini işləmişdir. 1991-1992-ci illərdə direktor vəzifəsində çalışmışdır. 1989-cu ildə Tbilisi şəhərində doktorluq dissertasiyası müdafiə etmiş, tezliklə bu ixtisas üzrə professor dərəcəsi almışdır.Professor Aida xanım İmanquliyevanın Azərbaycanda ərəbşünaslıq üzrə ilk qadın elmlər doktoru olması da onun şərəfli və zəngin həyat salnaməsində diqqəti cəlb edən məqamlardandır. Onun bilavasitə rəhbərliyi altında 10-dan çox namizədlik dissertasiyası müdafiə edilmiş, ərəb

ədəbiyyatının, ərəb-Azərbaycan ədəbi əlaqələrinin müxtəlif sahələrini araşdıran monoqrafiyalar, kitablar yazılıb dərc olunmuşdur. Tanınmış alim elmi fəaliyyətlə yanaşı, Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsində ərəbşünas kadrların hazırlanması işinə də böyük töhfə vermişdir.

Görkəmli alim Şərqşünaslıq İnstitutunda fəaliyyət göstərən "Asiya və Afrika ölkələri xalqları ədəbiyyatı" ixtisası üzrə müdafiə şurasının üzvü, sədr müavini və sədri olmuşdur. Bununla yanaşı, Azərbaycan şərqşünaslıq elminin beynəlxalq səviyyədə tanınmasına ziyalı təəssübkeşliyi ilə səy göstərən Aida İmanquliyeva Moskva, Küveyt, Poltava, Sankt-Peterburq, Düşənbə, Tbilisi, Hamburq və digər şəhərlərdə keçirilmiş elmi konfranslarda məzmunlu məruzələrlə çıxış etmişdir.Professor Aida İmanquliyeva geniş elmi yaradıcılıq potensialı ilə yanaşı, həm də təşkilatçılıq bacarığı ilə seçilmiş, çalışdığı vəzifələrdə daim fərqlənmişdir. AMEA-nın Şərqşünaslıq İnstitutunun əldə etdiyi böyük uğurlar məhz bu alim-xanımın adı ilə bağlıdır. Onun təşkilatçılığı və təşəbbüskarlığı sayəsində institutun maddi-texniki bazası möhkəmlənmiş, aparılan elmi tədqiqat işlərinin miqyası genişlənmiş, onların nəzəri səviyyəsi yüksəlmiş, elm ocağının beynəlxalq əlaqələri dərinləşmişdir. Dünyanın bir sıra aparıcı şərqşünaslıq mərkəzləri ilə əlaqələrin inkişafında maraqlı olan Aida xanım Ümumittifaq Şərqşünaslar Cəmiyyəti Rəyasət Heyətinin, habelə Şərq Ədəbiyyatlarının Tədqiqi üzrə Ümumittifaq Koordinasiya Şurasının üzvü olmuşdur.Professorun elmi-fəlsəfi düşüncələri, hadisələrə özünəməxsus baxışı, elmi tələbkarlığı və bir o qədər də qayğıkeşliyi onun ziyalı portretinin ayrılmaz cizgiləri idi. Görkəmli alimin müxtəlif illərdə dərc olunmuş əsərləri bu günün özündə də peşəkar tədqiqatçılar üçün sanballı mənbə kimi dəyərini qoruyub saxlayır. Aida xanım Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun ötən əsrin 70-80-cı illərində nəşr etdirdiyi "Ərəb filologiyası məsələləri" məcmuəsinin tərtibçisi və redaktoru olmuşdur. O həm də "Xarici Şərqin problemləri: tarix və müasirlik", "Yaxın Şərq xalqları ədəbiyyatı imperializmə qarşı mübarizədə", "Sovet Azərbaycanı və xarici Şərq", "Yaxın Şərq xalqlarının müasir ədəbiyyatında tərəqqi və ictimai ədalət uğrunda mübarizə problemi", "Yaxın və Orta Şərqdə milli azadlıq hərəkatı məsələləri", "Şərq filologiyası məsələləri", "Şərq ədəbiyyatında ənənə və novatorluq" kimi məcmuə və topluların redaksiya heyətinin üzvü, müəllifi və redaktorlarından biri olmuşdur.

Aida xanımın Şərq-Qərb qarşılıqlı ədəbi əlaqə və təsiri problemini sistemli şəkildə araşdıran ilk azərbaycanlı ərəbşünas olduğunu da xüsusi vurğulamaq lazımdır. Böyük intuisiyası, uzaqgörənliyi sayəsində hələ ötən əsrin 70-ci illərində bu gün üçün aktual olan sivilizasiyalararası dialoq probleminə özünəməxsus tərzdə yanaşmış, onun fəlsəfi mahiyyətini açıqlamağa

çalışmışdır. Alim Şərq və Qərb mədəniyyətlərinin qarşılıqlı təsir və əlaqələrini öyrənərkən hər iki ədəbiyyatın ümumbəşəri dəyərlərini əsas götürmüş, mədəni tərəqqini şərtləndirən amillərə istinad etmişdir. Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii cərəyanların təşəkkülü kimi məsələləri öyrənən fədakar alim elmi araşdırmaları ilə təkcə Azərbaycanda deyil, ölkə hüdudlarından kənarda da böyük nüfuz qazanmışdır. Təsadüfi deyil ki, Azərbaycan hələ keçmiş sovet məkanında ərəb filologiyasının əsas tədqiqat mərkəzlərindən biri kimi tanınmışdır. Aida xanımın araşdırmaları da ərəb ədəbiyyatının yeni mərhələyə qədəm qoymasında böyük xidmətləri olmuş Cübran Xəlil Cübranın, Əmin ər-Reyhaninin, Mixail Nüaymənin yaradıcılığına həsr edilmişdir. O, keçmiş sovet şərqşünaslığında adı çəkilən ədiblərin yaradıcılığını hərtərəfli araşdıran alim kimi tanınmışdır. Aida xanımın 1975-ci ildə Moskvada nəşr olunmuş ilk monoqrafiyası da Mixail Nüaymənin yaradıcılığına həsr olunmuşdur. Müəllif kifayət qədər ciddi elmi əsaslarla bu qənaəti diqqətə çəkir ki, "Qələmlər Birliyi"nin yaranması ərəb ədəbiyyatının, mədəniyyətinin inkişafında müstəsna əhəmiyyəti olan yeni ədəbi məktəbin formalaşması kimi qiymətləndirilməlidir. Monoqrafiyada vurğulanır ki, M.Nüaymə, C.X.Cübran, İ.Abu Mazi, R.Əyyub, H.Arida, A.M.Həddad kimi görkəmli ədibləri öz sıralarında birləşdirən bu cəmiyyət ərəb ədəbiyyatının inkişafında bütöv bir mərhələ təşkil etmiş, xeyli dərəcədə onun sonrakı inkişafını müəyyənləşdirmişdir.

Aida xanım İmanquliyeva məhcər ədəbiyyatının görkəmli nümayəndələrinin - Cübran Xəlil Cübranın və Əmin ər-Reyhaninin daha çox Qərb romantizminin, Mixail Nüaymənin isə rus tənqidi realizminin təsirinə məruz qaldığını göstərmiş, bunun əsas səbəbini onların dünyagörüşü, düşdükləri mühitin ədəbi-bədii qayəsi və yaradıcılıq istiqamətləri ilə bağlamışdır. Müəllif doğru olaraq belə bir nəticəyə gəlmişdir ki, Cübran və ər-Reyhanidə R.U.Emersonun, U.Uitmenin, N.Toronun, Şellinin, Bayronun, Hüqonun təsiri daha çox hiss edildiyi halda Poltavada təhsil almış Mixail Nüaymənin bədii yaradıcılığında L.Tolstoyun, İ.Turgenevin, A.Çexovun, ədəbi-tənqidi məqalələrində isə V.Belinskinin təsiri müşahidə olunur. Aida xanım haqlı olaraq göstərmişdir ki, C.X.Cübran, Ə.ər-Reyhani, M.Nüaymə özlərinin çoxcəhətli bədii yaradıcılıqlarında Avropa və Amerika ədəbiyyatlarının nailiyyətlərini mənimsəmiş, onları ən yaxşı milli bədii ənənələrlə üzvi surətdə sintezləşdirmişlər.

Aida xanım romantik poeziyanı onun Qərbdə C.Bayron, U.Bleyk, R.Emerson, U.Uitmen, Şərqdə isə C.X.Cübran, Ə.ər-Reyhani, M.Nüaymə kimi məşhur nümayəndələrinin timsalında araşdırmış, bir tərəfdən, hiss və əqlin, digər tərəfdən isə Şərq və Qərb düşüncə tərzlərinin vəhdət məqamlarını üzə çıxararaq bəşəriyyətin məhz bu vəhdətə doğru inkişaf etmək əzmini təsbit

etmişdir. Öz tədqiqatlarında poetik ruhla fəlsəfi düşüncənin, romantizmlə realizmin ittifaqından çıxış edən Aida xanım Azərbaycan ədəbi və fəlsəfi fikrində ilk dəfə olaraq Şərq və Qərb romantiklərinin müqayisəli təhlilini aparmışdır.Şərq ruhunu Qərb düşüncəsi, Qərb analitizmi ilə birləşdirmiş Cübran Xəlil Cübran, Əmin ər-Reyhani, Mixail Nüaymə, İlya Əbu Mazi kimi görkəmli sənətkarlar Şərq-Qərb ədəbi sintezi prosesində mühüm rol oynamışlar. Bütün bu ümdə məsələlərin kompleks tədqiqi isə Aida xanımın elmi yaradıcılığında əksini tapmışdır. Ümumilikdə, alimin Şərq müdrikliyi ilə Qərb həssaslığını özündə cəmləşdirən ərəb məhcər ədəbiyyatının yaranması, inkişafı, sənətkarlıq xüsusiyyətləri, onun başqa ədəbi məktəblərdən fərqli cəhətləri barədə mülahizə və fikirləri bu gün də görkəmli şərqşünaslar tərəfindən bəyənilir və qəbul edilir.Alimin fikrincə, yeni ərəb ədədiyyatının təşəkkülündə əhəmiyyətli rol oynamış "Suriya-Amerika məktəbi"nin nümayəndələri öz yaradıcılıqları ilə yalnız ərəb ədəbiyyatında deyil, həm də Şərq ölkələrinin milli ədəbiyyatlarında öz davamçıları üçün yol açmışlar. Bu, əsasən, onların əksər əsərlərini ingilis dilində yazması ilə əlaqədar olmuşdur.Şərqşünas alimin qələmə aldığı əsərlər özünün orijinallığı, mövzu müxtəlifliyi, ensiklopedik səciyyə daşıyaraq bir sıra mətləblərə elmi işıq salması, bir sözlə, yüksək sanbalı ilə diqqəti çəkir. Onun "Qələmlər Birliyi" və Mixail Nüaymə", "Cübran Xəlil Cübran", "Yeni ərəb ədəbiyyatı korifeyləri" monoqrafiyalarına, çoxsaylı elmi məqalələrinə bu gün də azərbaycanlı və əcnəbi tədqiqatçılar tez-tez istinad edirlər. Eyni zamanda, Aida xanım İmanquliyevanın elmi tədqiqatlarının nəzəri və praktik əhəmiyyəti yüksək dəyərləndirilir. Alimin bir çox xarici dillərə tərcümə edilmiş "Yeni ərəb ədəbiyyatı korifeyləri" monoqrafiyası onun çoxillik gərgin araşdırmalarının yekunu olmaqla ərəb məhcər ədəbiyyatı haqqında yazılmış ən sanballı tədqiqat əsərlərindəndir. Kitab ərəb dilinə tərcümə edildikdən sonra ərəb alimləri arasında da geniş maraq doğurmuş, mütəxəssislər tərəfindən yüksək qiymətləndirilmişdir.Ümumiyyətlə, professorun əsərlərində Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii cərəyanların təşəkkülü geniş tədqiq edilmişdir. Aida xanım İmanquliyeva təkcə şərqşünaslıq sahəsində deyil, həmçinin Şərqlə Qərb arasında elmi və mədəni əlaqələrin, ortaq mənəvi dəyərlərin aşkar edilməsində də səmərəli fəaliyyət göstərmişdir.

Aida xanım ərəb ədəbiyyatını araşdırmaqla yanaşı, özünü həm də tərcümə sahəsində sınamış, bu ədəbiyyatın bir sıra nümunələrini dilimizə çevirmişdir. Onun "İnsan və quş" (hekayələr) və "Ağ günlərin sorağında (İraq ədəbiyyatından nümunələr)" kitablarında toplanmış tərcümələri ilə tanışlıq göstərir ki, Aida xanım bu işin də incəliklərinə dərindən bələd olmuş, tərcümələrində yüksək poetik ruhu, orijinal dəst-xətti, məna və məzmunu qoruyub saxlaya bilmişdir.Görkəmli elm xadimi Aida İmanquliyeva fundamental tədqiqatları ilə təkcə Azərbaycan

və keçmiş sovet şərqşünaslığını deyil, eyni zamanda dünya şərqşünaslığını xeyli dərəcədə zənginləşdirmiş və inkişaf etdirmişdir. Özündən sonra böyük irs qoyub getmiş böyük şəxsiyyətlər kimi onun da xatirəsi milyonların qəlbində məhz ziyalılıq və mənəviyyat mücəssəməsi kimi yaşayır, həmişə sevgi və ehtiramla anılır.